gücləndiyini göstərir. Tədqiqatdan bir daha görünür ki, azərbaycançılıq məfkurəsinin möhkəmlənməsində bu dövrün ədəbiyyatının mühüm rolu olub. Beləliklə, təhlil olunan dövrün nəsr və dramaturgiyası milli yaddaşın bədii rekonstruksiyasına və azərbaycançılıq məfkurəsinin ədəbi-estetik möhkəmlənməsinə xidmət etdi. Ədəbi nümunələr vasitəsilə milli özünüdərk və tarixi həqiqətlərin bədii ifadəsi oxucuda milli şüurun, tarixi hadisələrə obyektiv baxışın formalaşmasına töhfə verdi.

## ƏDƏBİYYAT/REFERENCES

1. Anar (1977). Adamın adamı. Povestlər, hekayələr, esselər. – Bakı: Azərnəşr.– 504 s.
2. Anar (1984). Sizi deyib gəlmişəm. – Bakı: Azərnəşr. – 246 s.
3. Anar (1968). Yağış kəsdi. – Bakı: Gənclik. – 116 s.
4. Azərbaycan ədəbiyyatı tarixi (2025). 10 cilddə. c. 7, II hissə. – Bakı: “Elm”. – 952 s.
5. Əlişanoğlu, T. (2006). XX əsr Azərbaycan nəsrinin poetikası. – Bakı: “Elm”. – 312 s.
6. Əliyev, R. (2024). Yeni Azərbaycan ədəbiyyatı tarixi oçerkləri. – Bakı: “Mütərcim”. – 426 s.
7. Muğanna, İ. (2009). Seçilmiş əsərləri. 6 cilddə. c.1. / İ.Muğanna. – Bakı: Avrasiya press. – 424 s.
8. Paşayev, M.C. (2008). Seçilmiş əsərləri. Üçüncü kitab. – Bakı: “Çaşıoğlu” − 450 s.
9. Salamoğlu, T. (2014). İsmayıl Şıxlının bədii nəsri. – Bakı: E.L. NPŞ MMC. – – 176 s.
10. Şıxlı, İ. (2005). Seçilmiş əsərləri. 2 cilddə / İ.Şıxlı. – Bakı: “Şərq-Qərb”. – 400 s.
11. Vəliyev, S.V. (1959). Əncir ağacı. – Bakı: Uşaqgəncnəşr. – 102 s.
12. Vəliyev, S.V. (1962). Mübahisəli şəhər. – Bakı: Azərnəşr. – 260 s.

**Məqalə tarixçəsi**
*Daxil olub* *18.02.2026*
*Düzəlişə göndərilib* *25.02.2026*
*Qəbul edilib* *07.03.2026*
*Nəşrə tövsiyə edib* *Razim Məmmədov*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

*https://doi.org/10.30546/114578.2026.3015.267*

# "TƏZKİREYİ-YUSİF" ƏSƏRİNƏ DAXİL OLAN BƏZİ ŞEİRLƏRİN MÖVZU VƏ MƏZMUN İSTİQAMƏTLƏRİ

**Röya Gözəlova**
*doktorant*
*AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu*
*https://ORCID.org/0009-0009-3997-1510*
*royayolchuyeva@gmail.com*

**Xülasə**

"Təzkireyi-Yusif" klassik Azərbaycan ədəbiyyatının mənəvi-estetik dəyərlərini əks etdirən mühüm əsərlərdən biridir. Bu əsərə daxil olan şeirlər əsasən dini-mistik, didaktik və əxlaqi mövzularla səciyyələnir. Şeirlərdə ən çox vurğulanan məqamlardan biri insanın nəfsi ilə mübarizəsi, mənəvi saflığa çatmaq üçün ruhani kamilləşmənin vacibliyidir. Məsələn, bəzi şeirlərdə Yusifin Züleyxa qarşısında göstərdiyi mənəvi iradə nümunə kimi təqdim olunur. Digər bir istiqamət isə insan sevgisinin ilahi eşqə yüksəlməsi, fanidən əbədiyə doğru yol almaq kimi təsvir olunur. Bu baxımdan, "Təzkireyi-Yusif"ə daxil olan şeirlər təkcə dini-fəlsəfi fikirlərin ifadə vasitəsi deyil, həm də ədəbi-estetik dəyərə malik poetik nümunələrdir.

**Açar sözlər:** mistik lirika, ilahi məhəbbət, dostluq və vəfa, əxlaqi-didaktik məzmun, ruhani kamillik və s.

## THEMATIC AND CONTENT DIRECTIONS OF SELECTED POEMS INCLUDED IN *"TAZKIRAT AL-YUSUF"*

**Роя Гезалова**
*Институт рукописей имени М.Физули НАНА*

**Abstract**

*"Tazkirat al-Yusuf"* is one of the significant works reflecting the spiritual and aesthetic values of classical Azerbaijani literature. The poems included in this work are primarily characterized by religious-mystical, didactic, and moral themes. One of the most emphasized aspects in these poems is the human struggle with the self (nafs) and the importance of spiritual perfection in attaining moral purity. For instance, in some poems, Joseph's moral steadfastness in the face of Zuleikha is presented as an exemplary model.

Another thematic direction is the elevation of human love to divine love, depicted as a journey from the transient to the eternal. In this regard, the poems included in *"Tazkirat al-Yusuf"* serve not only as a medium for expressing religious and philosophical ideas but also as poetic works possessing significant literary and aesthetic value.

**Key words:** mystical lyricism, divine love, friendship and loyalty, moral-didactic content, spiritual perfection, etc.

## Giriş/Introduction

Mirzə Səməndər Dərbəndi XIX əsr Azərbaycan klassik poeziyasının görkəmli nümayəndələrindən biri kimi dövrünün ədəbi-mədəni mühitində mühüm yer tutmuşdur. Mirzə Səməndər Dərbəndinin Əbdülxaliq Yusifə həsr etdiyi məşhur "Fəsli-güldür"... qəzəli dostluq, məhəbbət və yüksək insani dəyərlərin tərənnümü baxımından xüsusilə əhəmiyyətlidir. Bu qəzəldə şairin həm Əbdülxaliq Yusifə olan dostcasına ehtiramı, həm də dövrün poeziyasına xas olan lirizm, təbiət gözəllikləri və sufızmə meyil özünü aydın şəkildə göstərir.

"Fəsli-güldür"... qəzəli klassik poeziyanın estetik prinsiplərinə uyğun şəkildə yazılmış, zəngin poetik təsvirlərlə verilmişdir. "Fəsli-güldür"... qəzəli həm təbiətə estetik baxış, həm də ilahi eşq axtarışlarının harmoniyasını ehtiva edir. Əsərdəki təsvirlər, simvolik obrazlar və sufistik işarələr onu yalnız bir təbiət şeiri deyil, həm də fəlsəfi mahiyyət daşıyan poetik mətnə çevirir.

Qəzəlin ilk beytindən etibarən baharın, yəni yaradılış və dirçəlişin poetik obrazları təsvir olunur, təbiət obrazlarının geniş poetik palitrası açılır:

*Fəsli-güldür, çəmən içrə çəmənara görünür,*
*Saqiyi-sadərüxi-sağərü səhba görünür* [TY, 2016:7]

Burada təbiətin oyanışı, yaz fəslinin gəlişi yalnız fiziki bir hadisə kimi deyil, həm də ruhun dirilməsi kimi təqdim olunur. "Saqi", "səhba", "gül", "bülbül", "çəmən" kimi klassik simvollar təbiət və eşq kontekstində birləşərək insanın mənəvi aləminə işarə edir. Gül rəmzi aşiqin sevdiyini, bülbül isə aşiqin özünü simvollaşdırır. S.Əhmədova yazır: "*Klassik şairlərin hamısı rəmzlərdən istifadə etmişdir, çünki rəmzlər şeirdə hər bir beytin bədii-estetik və ritmik emosional təsirini gücləndirməklə yanaşı, məna çaları baxımından şeirə xüsusi bir zənginlik gətirir"* [Əhmədova, 2023:42].

Qəzəldə gözəlliyə heyranlıq yalnız cismani deyil, həm də ilahi eşq istiqamətində inkişaf edir. Məsələn, *"Leyk hər bərgəsi bir ruh, nə ə'za görünür"*

misrası ilahi vəhdət ideyasının bariz nümunəsidir. Təbiətin hər zərrəsində ruhani həyatın nişanələri axtarılır. Mistik yanaşma sufizmin təsiri ilə formalaşmışdır. Bu baxımdan, qəzəl yalnız lirizm deyil, həm də məna dərinliyi ilə yüklənmişdir.

Qəzəldə sufizmə məxsus olan "mey", "saqi", "cam", "Kövsər", "Tuba", "Xızr", "Məsih", "möcüzə", "İslam", "kafər", "təqva", "kəbə", "kilsə" və s. simvollar istifadə edilir ki, bunlar vasitəsilə şair insanla Tanrı arasında əlaqənin axtarışında olduğunu göstərir. Məsələn:

*Can verir xakə əgər damsa ləabi-dəhənin,*
*Zərrə-zərrə neçə min Xızrü Məsiha görünür* [TY, 2016:9].

Burada Tanrının lütf və həyatverici qüvvəsi insani məhəbbət simvolu ilə vəhdət təşkil edir.

Şeirdə aşiq "rindi-xərabati", "kafiri-eşq", "sufiyi-eşq", "bədbəxt", "rüsva" kimi təsvir olunur. Məşuq isə "qönçeyi-növxiz", "sultan", "Tuba", "hüsn sahibi" kimi müqəddəsləşdirilir. Bu qarşılaşdırma həm cismani, həm də mənəvi səviyyədə şeirin konfliktini təşkil edir.

*Sən həmatı qönçeyi-növxizi-məlahətsən kim,*
*Gülşəni-ismətin arayişi-dünya görünür* [TY, 2016:9].

Qəzəlin ümumi strukturunda "dünya − viranə", "eşq − müqəvva olmayan tən", "kəbə − bütxana", "rind − molla" və digər ikililiklər ətrafında sufizmdəki "zahir − batin" qarşıdurması müşahidə olunur.

*Can çıxa, əql gedə, tən qala, insan deyilir,*
*Leyk eşq olmasa tən içrə, müqəvva görünür* [TY, 2016:10].

Bu misralar insanın yalnız eşq vasitəsilə mənalandığını, əks halda onun zahiri varlıqdan başqa bir şey olmadığını ifadə edir.

Qeyd edək ki, bu dövrdə şairlərin daha çox qəzəl janrına müraciət edirdi. M.Cabbarova qəzələ üstünlük verilməsini belə izah edir: *"XIX əsrin ikinci yarısında ədəbiyyatda başlıca yeri poeziya və onun ayrılmaz hissəsi, aparıcı qolu olan qəzəl janrı tuturdu. Forma yığcamlığı, bəhr və təfilə zənginliyi baxımından qəzəlin imkanları daha geniş* olduğundan *ənənəvi formalar içərisində qəzələ həmişə üstünlük verilmişdir"* [Cabarova, 2022:15].

Mirzə Səməndər Dərbəndinin "Fəsli-güldür"... qəzəli təbiət gözəlliklərinin estetik dəyərləndirilməsi ilə yanaşı, insanın ilahi eşqə və mənəvi kamilliyə çatmaq səylərini əks etdirən poetik mətndir. Qəzəldəki sufizm elementləri,

rəmzlərlə yüklü dil və obrazlar sistemi onu həm ədəbi-estetik, həm də fəlsəfi-mistik baxımdan zəngin nümunəyə çevirir.

Klassik Azərbaycan ədəbiyyatında Quran və İslam motivləri poetik mətndə mühüm yer tutur ki, qəzəl janrı da bu baxımdan istisna deyil. Qəzəl şairləri, əsasən, İslam mədəniyyətinin mənəvi-ideoloji dəyərlərinə, Quran ayələrinə və sufizmin fəlsəfi-etik prinsiplərinə müraciət edərək, öz yaradıcılıqlarında dərin məna qatları yaradırlar. Bu üslubda yazılmış qəzəllərdə dini-mistik çalarlar, Quran ayələrindən və peyğəmbər həyatından ilhamlanmış obraz və simvollar müşahidə olunur. Bu qəzəldə də həmin motivlərə rast gəlinməkdədir:

*Ya çəkib yer üzünə dövləti-Qarunu qəza,*
*Əks olub, mö'cizəyi-həzrəti-Musa görünür* [TY, 2016:7].

Qarun, Musa və möcüzə simvolları Qurani-Kərimdəki mifoloji-mistik elementlərin poeziyaya köçürülməsidir ki, burada möcüzə ilahi qüdrətin dünyaya təzahürü kimi göstərilir.

*Çəkilib Yusifi-gül şəkli-çəmən səhfəsinə,*
*Ləhceyi-bülbül ara ruhi-Züleyxa görünür* [TY, 2016:7].

Bu beytlərdə gül və bülbül simvolları klassik məhəbbət poetikasının ayrılmaz hissəsidir. Yusif-Züleyxa hekayəsi quran motivlərinə istinadla böyük məhəbbət sərhədində Tanrının rəhmətini, ruhaniliyi və ilahi cazibəni ifadə edir.

*"Təkcə Şərq ədəbiyyatı deyil, bütövlükdə dünya ədəbiyyatı zaman-zaman İslam dəyərlərindən bəhrələnmiş, "Qurani-Kərim" mövzusunda saysız-hesabsız əsərlər yaradılmış, bu və ya digər ayədən, Müqəddəs kitabdakı adlardan və əhvalatlardan bəhrələnərək sənət inciləri yaradılmışdır. Təkcə bir faktı qeyd edək ki, "Yusuf" surəsinin təsiri ilə onlarla poemalar yazılmış, lirik əsərlərdə Yusif və Züleyxa rəmz şəklində dəfələrlə işlədilmişdir"* [Məmmədov].

Qəzəlin ortasından sonrakı hissələrdə ilahi aşiq rindi, məşuq isə ismətli, vəhdətli obraz kimi çəkilməkdədir. Aşiq küfr, rüsvayıq, vəfasızlıqla mətləbini tapır:

*Mən həman rindi-xərabatiyi-bədbəxtəm kim,*
*Hər yetən bir söz ilə şənimə guya görünür.*
*Sən sitəmpişəvü laməzhəbü mən kafiri-eşq,*
*Səndə nə zöhdi-vərə', məndə nə təqva görünür* [TY, 2016:7].

Bu təzadlı tipajlar vasitəsilə ilahi aşiq küfrdə və sevda yolunda bütün qayda-qanunları inkar edən bir mistikdir.

Beləliklə, “Fəsli-güldür”... qəzəli təbiət poetikasının vəhdət fəlsəfəsi ilə sintez olunduğu, sufizmin mənəvi dərki ilə klassik məhəbbət rəmzlərinin qovuşduğu poetik zirvədir.

Əbdülxalıq Yusif öz təzkirəsində XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Seyid Əzim Şirvaninin yaradıcılığına xüsusi önəm vermiş, onun poeziyasının bədii-estetik zənginliyini və fəlsəfi dərinliyini yüksək qiymətləndirmişdir. Müəllif Seyid Əzimin söz sənətinə verdiyi töhfələri vurğulamaqla yanaşı, ruh oxşayan, məna tutumu geniş olan qəzəllərindən birinə də təzkirəsində yer ayırmışdır.

Qeyd edək ki, Bakı ədəbi mühitində Seyid Əzim Şirvaniyə dərin bir sevgi və ehtiram mövcud olmuşdur. Həmin dövrün ədəbi həyatında mühüm yer tutan “Məcməüş-şüəra”nın iclaslarında vaxtaşırı iştirak etmək məqsədilə Bakıya təşrif buyuran görkəmli şair qələm sahiblərinin poetik üslubunu yüksək qiymətləndirmiş, onların bədii yaradıcılığını təqdir etmişdir. S.Əhmədova yazır: *“Seyid Əzim Şirvani bakılı şair Əbdülxalıq Yusifə hüsn-rəğbət bəsləmiş, onu şeir aləminin sultanı adlandırmış”...* [Əhmədova, 2024:22].

Qəzəldə ilk misradan etibarən oxucu ilahi gözəlliyin təcəssümü ilə qarşılaşır:

*Həlqeyi-silsileyi-zülfi-pərişandır bu,*
*Baği-cənnətdə bitən sünbüli-reyhandır bu* [TY, 2016:11].

Burada “zülfi-pərişan” sadəcə bir sevgilinin saç düzümü deyil, həm də ilahi eşqin dolaşıqlığını simvolizə edir. “Baği-cənnət” və “sünbüli-reyhan” ifadələri isə bu gözəlliyi müqəddəsləşdirir, onu adi bir bəşər deyil, sanki cənnətdən gələn bir mələk (pəri) kimi təqdim edir. Bu da göstərir ki, şair üçün sevgi həm də dini və ilahi bir məna daşıyır.

Qəzəlin ümumi məzmununda sufi dünyagörüşü özünü aydın şəkildə göstərir.

*Rüxi-zibayə düşüb rişteyi-zülfi-siyəhin,*
*Cənnətə daxil olub yoxsa ki şeytandır bu?* [TY, 2016:11].

Bu beytdə şair gözəlliyi ilə şeytanı çaşdıracaq dərəcədə füsunkar bir varlığın təsvirini verir. Belə bir paradoksal sual yalnız sufi ədəbiyyatında eşqin mürəkkəb təbiətini anlamağa yönəlmiş fikirlərlə uzlaşır: sevgi bir yandan ilahi cəzbə, digər yandan isə imtahan vasitəsi kimi təqdim edilir.

Qəzəldə bir neçə yerdə Qurani-Kərimə və islam mifologiyasına aid simvollara istinad edilir: *“Xət gəlib arizivə ayeyi-Qur’andır bu”* və ya *“Dağılıb*

*"Müshəf'ə ya ki, dəmi-Osmandır bu"* misralarında sevgilinin bədəninin Quran ayələrinə bənzədilməsi həm onu müqəddəsləşdirir, həm də sufi poetikasının əsas ünsürünü-cismani gözəlliklə ruhani eşq arasında vəhdəti göstərir.

*Bu gecə eyləmişəm bürci-Sürəyyadə məkan,*
*Nəzərə oldu müsəvvir məhi-tabandır bu* [TY, 2016:11].

Bu beytdə ulduzlar, Sürəyyə bürcü və ay motivləri ilə göylər aləmi-ilahi sferalar arasında bir əlaqə qurulur. Bu da göstərir ki, şair gözəlliyi artıq yerdə deyil, uca, ali və əbədi səltənətdə axtarır və görür.

Şairin duyğularında həm pərəstiş, həm təslimiyyət, həm də acizlik müşahidə olunur. Qəzəldə eşq uğrunda can vermək "ehsan" − bir lütf olaraq qəbul edilir. Bu, tipik sufi dünyagörüşünün ifadəsidir; eşq ağrısı, əzab və fədakarlıq bir növ ruhun saflaşması kimi təqdim edilir.

Qəzəlin son beytində isə poetik və dini motivlər bir araya gəlir:

*Bu qədər bütlərə kim, səcdələr eylər Seyyid,*
*Deməz imanı olan kəs ki, müsəlmandır bu* [TY, 2016:11].

Burada şair ironiya və özünütənqid vasitəsilə öz halını, eşqə olan düşkünlüyünü bütpərəstliyə bənzədir, lakin bu bütlərin eşq və gözəllik olduğu vurğulanır. Bu, bir sufinin klassik özünüdərketmə, özünü günahkar görmə və nəfs ilə mübarizə halıdır.

Beləliklə, qəzəlin mövzu istiqaməti ilahi eşq, bəşəri sevgi, müqəddəsləşdirilmiş gözəllik, vəhdət və təslimiyyət kimi sufi motivləridir. Qəzəldəki Qurani və astronomik simvollar, poetik fiqurlar bu əsəri yalnız sevgi qəzəli deyil, həm də fəlsəfi, dini və mənəvi bir mətnə çevirir.

Təzkirədə yer alan digər bir qəzəl isə XIX əsrin sonları və XX əsrin əvvəllərində Azərbaycanın ədəbi-mədəni həyatında mühüm rol oynamış, dövrünün tanınmış şair və ziyalılarını bir araya gətirən "Məcməüş-şüəra" ədəbi məclisinin fəal üzvlərindən biri olmuş Haşim bəy Saqibə məxsusdur.

Təqdim olunan poetik parçalarda aparıcı mövzu eşq motividir. Əsas mövzunu dünya faniliyi, eşq iztirabı, ictimai və mənəvi süqut, musiqi ilə dərdin vəhdəti təşkil edir. Şair həm fərdi hissləri − məhəbbət dərdini, qəm və hüznü ifadə edir, həm də cəmiyyətin ümumi mənəvi durumunu, insanlığın qəflət içində yaşamasını tənqid edir.

*Həlqeyi-matəm vurub geysuyi-yar, ağlar bizə,*
*Nərgisi-bimari-canan zar-zar ağlar bizə* [TY, 2016:12].

Şair burada sevgi iztirabını və qəmli bir aşiqin dərdini təsvir edir. "Həlqeyi-matəm" ifadəsi şairin qəm içində yaşadığını bildirir. Ağlayan geysuyi-yar və xəstə nərgiz obrazları ilə sevginin məhəbbətlə yoğrulmuş, lakin acı ilə nəticələnən bir təcrübə olduğu vurğulanır. Aşiqin məşuqə qarşısında aciz durumu, vüsala olan ümidsiz həsrəti, eşqin yaratdığı divanəlik halı ardıcıl şəkildə işlənmişdir. Eşq, bu kontekstdə yalnız cismani deyil, həm də mistik-ruhani mahiyyət daşıyır:

*Divanələrlə həmnəfəs olsam, əcəb deyil,*
*Yox əhli hal, hali deyim əhli-halə mən* [TY, 2016:17].

Bu misralarda sufiliyə və hal əhlinə mənsub olma arzusu bədii ifadə tapır. Aşiqlik təkcə hiss yox, həm də tanrısal dərk mərhələsidir.

Şeirin ruhunu təşkil edən mühüm istiqamətlərdən biri sufizmdir. İrfan poetikasında "mey", "saqi", "məstlik", "hicr", "nalə", "pir", "məstxana" kimi simvollar sufi mənəviyyatının bədii ifadə vasitələridir. Bu obrazlar vasitəsilə şairin dünyaya qarşı laqeydliyi, mənəvi azadlıq axtarışı və qəlb saflığı vurğulanır:

*Zahid yügürsə məscidə, meyxanə küncü tut,*
*Verdimsə ibadəti-həftadsalə mən* [TY, 2016:17].

Burada zahid − riyakar din adamı, meyxana − gerçək mənəviyyatın mərkəzi, mey − Həq eşqinin rəmzi kimi təqdim olunur. Bu yanaşma təbiətüstü həqiqətə çatmaq üçün dini formallıqlardan keçidin mümkün olmadığını göstərir.

Mətn boyu işlənən muğam adları ("Şeşdəri", "Həsar", "Şikəstə", "Müxalif", "Rəhab", "Pəncgah", "Qətar") musiqinin ahəngi və şairin könül yanğısını ifadə etmək üçün seçilmişdir. Şikəstə, Mahur musiqi üslubları simvolik olaraq qırıq, qəmli, kədərli bir ruhi vəziyyəti ifadə edir:

*Dilşikəst oldu Şikəstə naleyi-Mahurdən,*
*Ey mübərriq, ağla sən də, musiqar ağlar bizə* [TY, 2016:12].

Klassik şərq poeziyasında tez-tez rast gəlinən zahid tənqidi bu şeirdə də aparıcı motivlərdən biridir. Şair zahid obrazını riyakarlığın timsalı kimi təqdim edir və onunla ziddiyyətli surətdə öz "günahkar, lakin səmimi" aşiqlik yolunu üstün tutur:

*Zahid, əlimdən alma bu sınmış piyaləni,*
*Kövsər şərabını sənə etdim həvalə mən* [TY, 2016:17].

Burada zahidin təmtəraqlı təqvası − mənəviyyatsızlığın pərdəsi, mey içən aşiqlər isə həqiqətə yaxın olan səmimi insanlardır. Şair yalnız eşq və irfanla kifayətlənmir, eyni zamanda cəmiyyətin mənəvi tənəzzülünü də tənqid edir. "*Daim təhqir və təzyiqlərə məruz qalan xalq və onun faciəvi həyatı şairin yaradıcılığında əsas mövzudur. Bu, Saqibin bütün ruhuna hopmuş, onu o qədər düşündürür ki, hətta məhəbbət lirikasında belə ara-sıra beytlərlə bu ictimai kədərini, dərdini dilə gətirir*" [Əliyeva, 2016:119].

Cəmiyyətin qəflət içində olması, dini-sosial sistemin puçluğu, mənəvi dəyərlərin unudulması açıq şəkildə ifadə olunur:

*Milləti-İslamı gör, məşğuli-qəflətdir yenə,*
*Göz açar bir kim gülər, ya kim baxar, ağlar bizə* [TY, 2016:12].

Bu bənd şeirin ictimai mesajını daşıyır. Şair dövrün insanlarını qəflətdə olmaqda, dünyanın faniliyini və ədalətsizliyini görməməkdə ittiham edir. Bu, eyni zamanda İslam ümmətinin ruhən süqutunu, oyana bilməməsini acı bir dillə tənqid edir. Qəzəl təkcə fərdi deyil, ictimai, fəlsəfi və bəşəri məzmun daşıyan poetik mətn kimi dəyərləndirilə bilər.

Təzkirədə şair Müşkatın yaradıcılığına da xüsusi yer verilmiş, onun ictimai məzmunlu şeirləri də öz əksini tapmışdır. Şairin bu qəbildən olan şeirləri, eyni zamanda, maarifçilik ideyalarının, milli oyanış və yenilənmə çağırışlarının təbliği baxımından da xüsusi əhəmiyyət kəsb edir. Təzkirədə "Mürəbbə" başlıqlı şeir XIX əsr maarifçilik hərəkatının ədəbiyyatda və ictimai fikir tarixində tutduğu mühüm yerin bədii ifadəsidir. *"Elmi fikir geniş müstəvidə XIX yüzilliyi maarifçilik əsri kimi qəbul edir. XIX əsr həqiqətən də Azərbaycanda maarifçiliyin bütün istiqamətlər üzrə formalaşdığı və hərəkat səviyyəsində inkişaf etdiyi tarixi bir mərhələdir. Bu dövrdə Azərbaycanda maarifçiliyin əsas dayaqlarından olan ədəbiyyatda maarifçi ideyalar qüvvətlənmiş, cəmiyyəti geri çəkən meyllər tənqid edilmiş, yeniləşmə zərurəti qəti olaraq meydana qoyulmuşdur"* [Həbibbəyli, 2017:4]. Qəzəl klassik poetik forma çərçivəsində yazılsa da, mövzu və ideya baxımından dövrünün ictimai-siyasi reallıqlarını və fəlsəfi-əxlaqi düşüncələrini əks etdirir. Bu qəzəl Azərbaycan ədəbiyyatında maarifçilik ideyalarının bədii ifadəsi olmaqla, elm, din, əxlaq, insanlıq və cəmiyyətin islahı kimi ali mövzuları əhatə edir. Şair cəmiyyətin əxlaqi-mənəvi düşkünlüyünü tənqid edir, bunun səbəbini həqiqi elmin və dini-əxlaqi dəyərlərin unudulmasında görür.

Şairin qəzəldə əsas vurğuladığı məsələ elmin mahiyyəti və məqsədidir. Əsl elmin vəzifəsi cəmiyyətə fayda vermək, insanları xeyirxah və ədalətli etmək,

zülm və cəhaləti aradan qaldırmaqdır. Qəzəldə göstərilir ki, həqiqi elm ədalət, insaf, məhəbbət elmidir.

Əgər elm insanlığa xidmət etmirsə, sadəcə "nəxvət" (təkəbbür) və zülm doğurursa, belə elm nəhs və bədbəxtlik gətirir. Qəzəldə dövrün sosial problemlərinə də işarə edilir: abad yerlərin viran qalması, azadələrin əsarətə düşməsi, şahzadələrin alçaldılması zamanın ədalətsizliyinin simvollarıdır. Ədalət və insafın yoxluğu cəmiyyətin fəlakətini doğurur. Mövcud vəziyyətin dəyişməsi üçün elm, din və əxlaqın birlikdə fəaliyyəti vacibdir. Əsərin ictimai yönümü dövrün ictimai-siyasi böhranlarının, zülm və cəhalətin kəskin şəkildə pislənilməsidir.

Təzkirədə Bakı ədəbi mühitinin aparıcı nümayəndələrindən biri kimi tanınan, söz ustalığı ilə seçilən Ağadadaş Münirinin də qəzəlinə yer verilmişdir. Qəzəl həm klassik Azərbaycan ədəbiyyatının estetik-mistik ruhunu, həm də yüksək intellektual və elmi-bədii səviyyəsini daşıyan bir tərifnamə və təbrik şeiridir. Klassik divan poeziyasında geniş yayılmış "divan bağlaması münasibətilə tərif" janrı bir ədibin yeni divanının və ya poetik toplusunun işıq üzü görməsi münasibətilə yazılmış təbrik və tərif xarakterli yüksək üslublu şeirdir. M.Allahmanlı klassik ədəbiyyatda divan bağlama ənənəsini klassiklərin yaradıcılığının üzə çıxması zərurətindən ortaya çıxdığını qeyd edir [Allahmanlı, 2018:56].

Bu şeirdə "Yusif" adlı şairin divan bağlaması münasibətilə müəllif (Müniri) tərəfindən ona ünvanlanan bədii-mistik, fəlsəfi və əruz əsaslı tərifnamə təqdim olunur. Burada Yusif obrazı təkcə tarixi və dini personaj kimi yox, həm də şəxsiyyətin poetik idealı, estetik və əxlaqi kamal nümunəsi kimi təqdim edilir. Şeirdə həm Qurani-Kərimdəki Yusif peyğəmbərə, həm də ədib Yusifə işarə olunur və bu iki qatlılıq mistik bədii allüziya yaradır:

*Bu həman Yusifdür Misrdə olmuşdu əziz?*
*Ta Züleyxa görüb eşqində çü ney eylədi nal* [TY, 2016:36].

Burada "Yusif-Züleyxa" süjeti ilə şair – ilahi vəhy, şair – eşq, şair – təqdir münasibətləri paralel şəkildə işlənir.

Təbrik poetikasında, belə əsərlərə tez-tez rast gəlinən mistik eşq və vüsal fəlsəfəsi burada da geniş şəkildə yer alır. Qəzəldə eşq – kamillik, hicr – dünyəvi çətinlik, vüsal – ilahi zövq və yaradıcılıqla qovuşma kimi anlamlar daşıyır.

Şeirdə irfani təfəkkür və sufizm qatı açıq hiss olunur. Hər bir bədii obraz - "mey", "meyxana", "piyalə", "aşiqlik", "nağara", "həqq", "qəlb", "ney" kimi ifadələr simvolik səciyyə daşıyaraq mistik poetikanın kodlarını təcəssüm etdirir.

*Şövqi-Həq ləzzəti çəkdirdi onu zindanə,*
*Nə ki, oldu səbəbi-töhməti-ismət səri-bal* [TY, 2016:36].

Bu misrada şair Həqiqətin eşqinə o qədər mübtəladır ki, zindan belə onun üçün bir mənəvi məqam olur. Bu, "nəfsin zindanı"ndan ruhun azadlığına çatmağı simvolizə edir.

Şeirin çox mühüm istiqamətlərindən biri - ədəbi tənqid və qiymətləndirmə aspektidir. Müəllif Yusifin divanını klassik şeir tarixindəki görkəmli simalarla - Əsməqi, Loğman, Xosrov, Əzhəri, Mani, Nasiri və s. ilə müqayisə edərək onun elmi və poetik zənginliyini təhlil edir:

*Hikməti, fəlsəfəni, məhbəsi-coğrafiyanı*
*Öz kəlamında edib Əsməqi tək iste'mal"* [TY, 2016:36].

"Divani-mədhiyyə" formasında yazılmış bu şeirdə təbrik yazılmış şəxs (Yusif) təkcə şair deyil, həm də "məclisi-hikmətin tacı", "sərrafı-dürri-hünər", "məliki-mülki- kəmal" kimi poetik-ictimai statuslarla təqdim olunur.

Təzkirədə dövrün tanınmış ədəbi şəxsiyyətlərindən biri, ədəbi məclisin rəhbəri, qəzəlxan Azər Buzovnalıya da xüsusi yer ayrılmış və onun poetik irsinin nümunəsi olan qəzəli təzkirəyə salınmışdır. Qəzəl əsasən şairlik sənəti, eşq və məhəbbət, ilahi ilham və ilahi gözəllik, zaman və cəmiyyətin naqislikləri, həmçinin klassik ədəbiyyatın rəmzləri və simvolları əsasında qurulmuşdur.

Azər Buzovnalı da öz sələflərinin yaradıcılıq prinsiplərinə sadiq qalaraq, şairliyi ilahi bir istedad, Tanrı vergisi kimi dəyərləndirirdi. Şeirin ilk hissəsində müəllif şairlik sənətinə ilahi dəyər verir. O, şeir yazmağı peyğəmbərliklə bir tutaraq, sanki şairin ilahi bir vəzifə daşıdığını, qələmindən çıxan sözlərin möcüzəyə bərabər olduğunu bəyan edir: *"Qələmin mö'cüzə divan, bəyanın müshəf"* və yaxud "*Xaliqi- şe'r peyəmbərliyə qıldı mümtaz"* misralarında şairin ilahi bir missiya daşıdığı fikrini vurğulayır. "Bəhri-mə'na" (mənalar dənizi), "gühəri-nəzm" (şeir incisi), "Rəfrəf" (Cəbrailin qanadları) kimi obrazlar vasitəsilə şairliyin ilahi səciyyəsi göstərilir.

Qeyd edək ki, klassik ədəbiyyatda bir çox sənətkarlar, məsələn, M.Füzuli şeiri, sənəti Allahın lütfü [Füzuli, 2005:26], M.F.Axundzadə isə gözəl məzmunu Allah vergisindən qaynaqlanan təbin təzahürü hesab edirdilər [Axundzadə, 2005:66].

Şeirin əsas mövzu xətti ilahi eşq, zülfə vurğunluq, şəhlagöz gözəlin füsunkarlığı və gözəllik qarşısında şairin əzilmiş vəziyyəti üzərində cərəyan edir. Qəzəldə əsas vurğu eşqin fəlakətli təsirinə, zülfə məhkum sevginin əsarətinə və

aşiqin çəkdiyi iztirablara yönəlmişdir. Sevgili bəzən ustad sənətkar, bəzən cadugər, bəzən də büt kimi təqdim olunur. Müəllif Fərhad, Leyli-Məcnun, Yusif-Züleyxa, Süleyman-Bilqeyis, Nəmrud, Xəlil kimi rəmzi obrazlarla eşqin hərarətini və məcnunluğunu dərinləşdirir: *"Məsnədi-nəzmi-Süleymaninə sənsən Asəf"* və yaxud *"Qiyməti-Yusifi, bazarə girib əldə kələf"* bu misralarda əzəli və əbədi eşqə vurğunluq, onun dəyərinin başa düşülməməsi və sevənin fədakarlığı tərənnüm olunur. Şair sevgilidən uzaq keçən zamanın boş və mənasız olduğunu, Kəbənin məkanı ilə sevgilinin küçəsini (kuy) eyniləşdirərək müqəddəsliyi vurğulayır.

*"Azər Buzovnalı yaradıcılığının mühüm hissəsini təşkil edən məhəbbət lirikası təkcə incə duyğuların, zərif hisslərin, mənəvi-əxlaqi dəyərlərin tərənnümü deyil, həm də zamanə insanının lirik-fəlsəfi düşüncəsinin, mənəvi-psixoloji durumunun ifadəsidir"* [Bağırova, 2018:16].

Şair qəzəldə yaşadığı zamanın dəyərsizliyi, layiqsiz insanların yüksəlməsi, şairlərin, aşiq insanların dəyərsizləşdirilməsi kimi mövzulara toxunur:

*Leyk sərrafı-zəmanə belə bədgövhərdir,*
*Cayi -əlmas qürazəylə satır imdi xəzəf* [TY, 2016:51].

Burada zamanın sərrafı − dəyər verəni artıq qiymətli daşla (əlmas) dəyərsiz şüşəni (xəzəf) eyni tutduğu qeyd olunur. Bu, dəyərlərin dəyişməsi və sosial tənqid nümunəsidir.

Sonda şair çox çəkdiyi hicran ağrısının bitməsini, vəslə nail olmağı dua edir və İbrahim-Nəmrud atəşi rəmzi ilə ilahi mərhəmətə işarə edir:

*Hicranda, ya Rəb, Azərə eylə nəsibi-vəsl,*
*Nəmrud odun Xəlilə necə gülşən eylədin* [TY, 2016:53].

Bu, yalvarış və ümidsiz bir aşiqin Allaha üz tutması səhnəsidir. Aşiqin son duası ilə qəzəl bir mənəvi zirvəyə yüksəlir. İbrahim peyğəmbərin Nəmrud oduna atılıb qurtulması kimi, Azərin də vəslə çatması üçün Tanrıdan möcüzə dilənir.

Mirzə Əbdülxaliq Yusif öz təzkirəsinə Qarabağın tanınmış söz ustadlarından biri olan Əbdül Qarabağinin dini mövzuda olan qəzəlini əlavə etmişdir. Qəzəl klassik Şərq poeziyasının ənənəvi motivləri əsasında qurulmuş, dərin fəlsəfi, əxlaqi və mənəvi məzmun daşıyan poetik nümunələrdən biridir. Şair burada peyğəmbər Yusifin obrazı üzərindən insanın mənəvi aləminə, əxlaqi keyfiyyətlərinə, nəfs və irfan məsələlərinə toxunur. Qəzəl həm dini-mistik, həm də mənəvi-əxlaqi təlimləri özündə ehtiva edir.

Qəzəldə Yusif obrazı mərkəzi yer tutur. Bu obraz Quranın “Yusif surəsi” ilə bağlıdır və gözəllik, sədaqət, təmizlik, sınaqlara dözümlülük rəmzidir. Şair həm peyğəmbər Yusifin həyatını, həm də onunla bağlı simvolik mənaları poetik dillə təqdim edir.

Qəzəl *“Ey olan məmləkəti-nəzmdə sultan Yusif”* misrası ilə başlayır. Burada Yusif həm nəzmdə (şeirdə) bir sultan, həm də nəsrdə Loğman (müdrik, həkim) kimi təqdim olunur. Şeirdə şair bildirir ki, Tanrının istəmədiyi sifətlərdən uzaq durmaq, bəla və müsibətlərə səbir etmək insanın vəzifəsidir. *“Təzə müsəlman Yusif”* ifadəsi ilə yenicə iman gətirən, saf və pak qəlbli insan nəzərdə tutulur. Bu fikir islam fəlsəfəsində imanın yetkinləşməsi, insanın nəfs sınaqlarından keçməsi anlayışları ilə səsləşir.

Şair riya paltarı geyinməməyi, özünü aşkara çıxarmağı tövsiyə edir. Bu fikir təsəvvüf ədəbiyyatının əsas prinsiplərindən biridir: insan zahirdə deyil, batində saf olmalıdır. *“Çaki-giriban”* ifadəsi ilə şair təvazökarlıq və özünü unutma halını simvolizə edir. Bu həm də irfani poeziyada “fanilik” anlayışı ilə bağlıdır.

Burada qəflət (ilahi həqiqətdən xəbərsiz olma) insanın ən böyük mənəvi problemi kimi təqdim edilir. Şair insanı yuxudan oyadıb, onun mənəvi oyanışa çatmasını istəyir. Bu, həm islam fəlsəfəsində, həm də təsəvvüfdə ruhun yüksəlişi və kamilləşməsi anlayışı ilə bağlıdır. “Nan” (çörək) isə dünyəvi maddi istəkləri simvolizə edir. Qəzəlin əsas ideyası insanın nəfsani istəklərdən uzaqlaşaraq mənəvi saflaşmaya, ilahi eşqə yönəlməsidir.

Qəzəlin təzkirəyə daxil edilməsi həm də müəllifin dini-mistik ədəbiyyata verdiyi yüksək dəyərin, mənəvi zənginlik və irfan düşüncəsinin təbliği istiqamətindəki məqsədli yanaşmasının bariz ifadəsidir. “Məcməüş-şüəra” üzvlərinin yaradıcılığında dini motivləri araşdıran S.Əhmədova qeyd edir ki, XIX əsrin ikinci yarısı XX əsrin əvvəllərində fəaliyyət göstərən “Məcməüş-şüəra” ədəbi məclisi belə bir fikrə əsaslanırdı ki, xalqın gələcək inkişafı və tərəqqisi yalnız İslam dini ilə mümkündür [Bağırova, 2018:73].

Təzkirədə verilən şeirlərin böyük əksəriyyəti qəzəl janrının əruz vəznindədir. *“XIX əsr ədəbiyyatımızı vəzn baxımından təhlil edərkən bu əsrin vəzninin əsasən əruz olduğunu inamla söyləyə bilərik. Və bu hal poeziyamızda şəriksiz olaraq XX əsrin 20- 30-cu illərinə qədər davam edir”* [Quliyev, 2022:26].

Təzkirədə mövzu və janr baxımından digər şeirlərdən fərqlənən, şəkili şair Qantəmir Faizin Əbdülxaliq Yusifə ithaf etdiyi “*Bakı və Şəki lövhələri*”

məsnəvisi vətənpərvərlik, təbiət gözəllikləri, şəhərlərin tərifı, dostluq motivlərindən ibarət poetik kompozisiyadır. Əsərin giriş hissəsində şair öz dostuna − könlünün qərarı, ümid yeri, qibləgahı adlandırdığı şəxsə müraciət edir. Burada dostluğun qəlbi sədaqət və mənəvi yaxınlıq üzərində qurulduğu vurğulanır. Şair "mehribanım, əzizim, nuri-çeşmim" kimi müraciətlərlə dostuna dərin sevgisini və hörmətini ifadə edir.

Əsərin əsas hissəsi Bakı və Şəkinin təsvirinə həsr olunmuşdur. Burada hər iki şəhər özünəməxsus təbii və iqtisadi xüsusiyyətləri, mədəni zənginliyi və yaşayış mühiti baxımından qarşılaşdırılır. Bakı burada həm maddi tərəqqi, həm də ticarət və sənaye şəhəri kimi təqdim olunur. Onun "məclisi-Cəmşid"ə bənzədilməsi şəhərin rifahını və bədii-estetik gözəlliyini simvollaşdırır. Şəki isə sakit, təbiətə yaxın, romantik və estetik bir məkan kimi təqdim olunur. İrəmin gülüstanına bənzədilməsi Şərq poeziyasında cənnət təsvirlərinə işarədir.

Təzkirəyə daxil olan şeirlər arasında "Məcməüş-şüəra" ədəbi məclisinə başçılıq edən Məhəmmədağa Cürminin də qəzəlləri yer almışdır. Qəzəlin mərkəzində dayanan əsas mövzu eşqdir. Bu eşq həm zahiri, yəni insani-sevgi, həm də batini, yəni mistik-ilahi məhəbbət çalarları daşıyır. Qəzəldə aşiqin məşuqa vurğunluğu, sevgilinin cazibədar gözəlliyi və aşiqin bu eşq uğrunda çəkdiyi əzab və iztirablar lirizm dolu bir dillə təqdim olunur.

Qəzəldə sevgi təkcə duyğusal bağlılıq kimi deyil, həm də insan qəlbini dəyişdirən, onu saflaşdıran, bəzən isə viran edən bir qüvvə kimi təsvir edilir. Sevgilinin gözəlliyi təbiət gözəllikləri ilə müqayisə olunur, lakin hər zaman bu gözəlliyin fövqündə dayanır.

Şair qəzəldə aşiqlik halını, yəni sevginin yaratdığı hissləri çox təbii və dərindən ifadə edir. Sevgi yolunda aşiq məst olur, sərxoş olur, virandır, biçarədir, əzab və ayrılıq içində yanır. Burada "meypərəstlik" təkcə fiziki sərxoşluq deyil, eşqin, ilahi sevginin sərxoşluğudur. Bu motiv klassik Şərq poeziyasının sufi təlimləri ilə sıx bağlıdır: aşiq sevgidən sərxoş olur, dünyadan keçmiş bir hal alır.

Qəzəldə təbiət təsvirləri sevgi mövzusuna möhtəşəm bir çalar verir: Gül, bülbül, lalə, nərgiz, sünbül − bunlar aşiqin sevgi macərasının dekorasiyasına çevrilir.

Məşuqun hər bir üzvü (dodaq, yanaq, boy, saç) təbiətdəki gözəllik obrazları ilə müqayisə olunur. Bu paralellər təbiətin canlı və dəyişkən gözəlliyini, həmçinin sevgilinin heyranedici təsirini göstərir. Beləliklə, şair insan sevgisi ilə təbiət gözəlliyini vəhdətə gətirir.

Təzkirəyə daxil olan şeirlərin mövzu təhlilləri göstərir ki, təqdim edilən poetik nümunələrin əsas istiqamətini *eşq, məhəbbət* mövzusu təşkil edir. Bu şeirlərdə həm insana yönəlmiş dünyəvi eşq, həm də ilahi məhəbbət müxtəlif poetik çalarlarla, simvol və rəmzlərlə ifadə olunmuşdur. Klassik Şərq poeziyasında olduğu kimi, burada da eşq yalnız bir hiss olaraq deyil, eyni zamanda insanın mənəvi kamilliyə çatmasının, ruhi saflaşmasının və varlığın dərin anlamının açarına çevrilir.

Şeirlərdə təqdim olunan dünyəvi eşq insan sevgisinin cazibədarlığını, gözəllik qarşısında duyulan heyranlığı və könül dərdlərini əks etdirir. Bu cür eşq tərənnümləri klassik lirikanın ənənəvi motivlərinə söykənir və Leyli və Məcnun, Şirin və Fərhad kimi məşhur ədəbiyyat obrazlarının təsiri altında formalaşmışdır. Digər tərəfdən, bəzi şeirlərdə ilahi eşq və ürfan motivləri ön plana çıxır ki, bu da insanın fani aləmdən keçib, Tanrıya qovuşmaq istəyi, ruhanilik və mənəvi yüksəliş ideyalarını əks etdirir. Bu cür poetik nümunələrdə ilahi eşq, mütləq gözəllik rəmzi olaraq təqdim edilir və eşqin əbədi, dəyişməz mahiyyəti vurğulanır.

Təzkirəyə daxil olan poetik nümunələrdə yalnız məhəbbət mövzusuna deyil, eyni zamanda *vətənpərvərlik* və *ictimai motivlərə* də yer verilmişdir. Belə ki, təhlil olunan materialda vətən mövzusuna həsr olunmuş iki şeir yer alır. Bu şeirlərdə müəlliflər doğma torpağa bağlılıq, milli kimlik, vətənin müqəddəsliyi və azadlıq ideyalarını yüksək bədii-estetik dəyərlərlə ifadə edirlər.

*İctimai* motivli şeirlərə isə təzkirədə daha az yer verilmişdir. Burada daha çox cəmiyyətin mənəvi-əxlaqi dəyərlərinin tənqidi, cəmiyyətdəki ədalətsizliklər poetik dillə tənqid edərək dövrün reallıqlarını oxucuya çatdırırlar.

Yekun olaraq qeyd etmək olar ki, təzkirəyə daxil olan şeirlərin mövzu müxtəlifliyi klassik ədəbiyyatın zəngin ideya-estetik çərçivələrini nümayiş etdirir. *Eşq, məhəbbət, vətən sevgisi* və *ictimai* məsələlər bu poeziyanın əsas mövzu sütunlarını təşkil edir.

## ƏDƏBİYYAT/REFERENCES

1. Axundzadə, M.F. (2005). Əsərləri (Tənqid risaləsi). 3 cilddə. / M.F.Axundzadə. – Bakı: "Şərq-Qərb" – c.2. – 374 s.

2. Allahmanlı, M.Q. (2018). Folklorşünas düşüncələri / M.Q.Allahmanlı. – Bakı: "Ləman". – 352 s.

3. Bağırova, S.B. (2018). Azər Buzovnalının poetik irsi / filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı / – Bakı, – 32 s.